# Estoniya Azərbaycanla münasibətlərin bütün istiqamətlər üzrə dərinləşməsində maraqlıdır



**Oktyabrın 22-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Estoniya Respublikasının xarici işlər naziri Marqus Tsahkna ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimizi birləşdirən dostluq münasibətlərindən və qarşılıqlı faydalı əməkdaşlıqdan söz açan parlamentin spikeri, dövlətlərarası münasibətlərin inkişafında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin, görüşlərin, eləcə də imzalanan sənədlərin mühüm rol oynadığını deyib. O həmçinin özünün üç il öncə Estoniyaya rəsmi səfəri çərçivəsində keçirilən görüşləri məmnunluqla xatırladıb.

Söhbət zamanı ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə daha da inkişafı üçün yaxşı imkanların olduğu qeyd edilib.

Spiker Sahibə Qafarova qonağa Vaşinqton görüşü və Azərbaycan-Ermənistan arasında normallaşma prosesi ilə bağlı fikirlərini çatdırıb, həmçinin özünün Cenevrədə Ermənistan parlamentinin spikeri ilə baş tutan görüşü haqqında məlumat verib.

Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüş barədə məlumat verən Estoniyanın xarici işlər naziri Marqus Tsahkna, görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrini əhatə edən əməkdaşlığın dərinləşdirilməsi barədə fikir mübadiləsinin aparıldığını bildirib. Qeyd olunub ki, Estoniya Azərbaycanı regionda çox vacib tərəfdaş kimi görür və Azərbaycanla münasibətlərin bütün istiqamətlər üzrə dərinləşməsində maraqlıdır.

O, həmçinin Azərbaycan ilə Ermənistan arasında Vaşinqton görüşündə əldə olunan nailiyyətlər münasibətilə təbriklərini çatdırıb və ölkəmizin regionda sülhün, əmin-amanlığın, eləcə də əməkdaşlığın təmin olunmasındakı rolunu yüksək dəyərləndirib.

Söhbətdə parlamentlərarası əlaqələrin ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərin vacib tərkib hissəsi olduğu vurğulanaraq, beynəlxalq platformalarda qarşılıqlı faydalı əməkdaşlığın əhəmiyyəti, o cümlədən qanunverici orqanlarda fəaliyyət göstərən dostluq qruplarının fəaliyyətinin vacibliyi qeyd olunub.

***"Azərbaycan"***

Azərbaycan. - 2025.-23 oktyabr (№227).- S.4.